daha da təkmilləşdirilməsinə yönəldilən proqram mövzuları nəzərdə tutulmalıdır.

31. Peşə təhsili müəssisələrində öyrənilən hər bir peşə üzrə iş verənlərin konkret şəraitindən asılı olaraq istehsalat təcrübəsinin müfəssəl proqramı işlənib hazırlanır.

32. Tədris proqramı hər bir tədris qrupunda məcburi yerinə yetirilən sənəd sayılır. Proqramda peşə təhsili müəssisələri tərəfindən sərbəst olaraq dəyişikliklərin aparılmasına icazə verilmir. Texniki tərəqqinin sürətli inkişafı ilə əlaqədar yeni texnikanın, texnologiyanın və qabaqcıl isteh-sal təcrübəsinin öyrənilməsinə dair materiallar proqramlara daxil edilməli, müvafiq köhnəlmiş tədris materialları proq-ramdan çıxarılmalıdır. Ayrı-ayrı mövzuların öyrənilməsi ardıcıllığında dəyişikliklərin edilməsinə icazə verilir. Bu də-yişikliklər metodiki komissiyalarda müzakirə edilməli və məktəbin (litsey) direktoru tərəfindən təsdiq olunmalıdır.



# PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİ İŞÇİLƏRİNİN İXTİSASININ ARTIRILMASINA, PEDAQOJİ VƏ TEXNİKİ MİNİMUMLARININ TƏŞKİLİNƏ DAİR
# T Ə L İ M A T

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02.05.2000-ci il marixli 403 №-li əmri ilə məsdiq edilmişdir.*

**I. Ümumi müddəalar.**

1. İxtisas, pedaqogika, psixologiya elmləri və metodika üzrə yenilikləri,habelə elm və texniki nailiyyətləri, müasir texnologiyanı öyrənmək, onların təlim-tərbiyə prosesinə tətbiqini təmin etmək məqsədi ilə peşə təhsili müəssisələri işçilərinin ixtisasının artırılması təşkil olunur.

2. Peşə məktəbi və peşə litseylərinin mühəndis-pedaqoji işçiləri "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ən azı 5 ildən bir ixtisasını artırır və yaxud yeni ixtisas alırlar.

3. Pedaqoji təhsili olmayan lakin peşə təhsili müəssisələrində işləyən kadrların pedaqogika və psixologiya elmləri üzrə yenidən hazırlanması təmin olunur.

4. Peşə məktəbində (litsey) işləyən ümumtəhsil fənn müəllimlərinin təhsil müəssisəsinin profilinə uyğun istehsalatın əsaslarına və texniki biliklərə yiyələnməsi təşkil edilir.

**II. İxtisasartırmanın təşkili formaları və qaydaları.**

5. Peşə təhsili müəssisələri işçilərinin ixtisasının artırılması istehsalatdan ayrılmaqla və ayrılmamaqla təşkil olunur.

6. Peşə məktəbi və peşə litseyində işçilərin ixtisasının artırılmasına dair perspektiv və illik qrafiklər

hazırlanır, pedaqoji şurada müzakirə olunur, direktor tərəfindən təs-diq edilir.

7. Plan-qrafiklərə uyğun olaraq direktorun əmrinə əsasən işçilər ixtisasartırma institutlarına və onların filiallarına, ali məktəblərin və peşə litseylərinin nəzdində fəaliyyət göstərən ixtisasartırma kurslarına göndərilir.

8. İxtisasartırma kurslarında xüsusi tədris proqramına əsasən mühəndis-pedaqoji işçilər nəzərdə tutulmuş müddətdə siyasi, iqtisadi, pedaqoji, psixoloji və ixtisas biliklərini artırır, pedaqoji ustalığını və metodiki hazırlığını təkmilləşdirirlər.

9. Dinləyicilər tədris plan və proqramlarına əsasən tədris işlərini yerinə yetirir, imtahan və zaçotlar verir, kurs işi (referat) müdafiə edirlər.

10. İxtisasartırma kursunu müvəffəqiyyətlə bitirən dinləyicilərə müəyyən edilmiş nümunədə şəhadətnamə (vəsiqə) verilir.

Tədris planını və proqramlarını yerinə yetirməyən, habelə daxili intizam qaydalarını pozan dinləyicilər kursdan xaric edilir və bu barədə onların iş yerlərinə məlumat verilir.

11. İxtisasartırma kurslarında olduğu müddətdə işçilərin orta əmək haqqı saxlanır, digər xərclər (təqaüd və ezamiyyə xərcləri) müəyyən olunmuş qaydada ödənilir.

12. Müasir texnikanı və texnologiyanı, mütərəqqi iş üsullarını və metodlarını öyrənmək, istehsalat dərəcəsini ar-tırmaq və ya təsdiq etmək məqsədi ilə istehsalat təlimi us-taları qabaqcıl dövlət və qeyri-dövlət müəssisə və təşkilat-larda staj keçirlər.

13. Staj keçməyə göndərilən istehsalat təlimi ustası məktəb (litsey) və müəssisə rəhbərliyi tərəfindən təsdiq olunan proqram əsasında ixtisasına uyğun işləri yerinə yetirir, qabaqcıl iş təcrübəsini, yeni texnologiyanı, müasir avadanlığı, müəssisənin iqtisadiyyatını və texniki təhlükəsizlik qaydalarını öyrənir.



14. İstehsalatdan ayrılmaqla staj keçməyə göndərilən istehsalat təlimi ustalarının orta əmək haqqı saxlanır.

15. Stajkeçmə başa çatdıqdan sonra istehsalat təlimi ustası komissiya tərəfindən attestasiyadan keçirilir. Staj ke-çən istehsalat təlimi ustası komissiyaya staj keçmə haq-qında hesabat təqdim edir, imtahan verir və yaxud referat yazır.

16. Müəssisə istehsalat təlimi ustasına staj keçməsi barədə müvafiq sənəd verir.

17. Mühəndis-pedaqoji işçilərin pedaqoji biliyini və metodiki hazırlığını təkmilləşdirmək məqsədi ilə peşə məktəbində və peşə litseyində müəllim və istehsalat təlimi ustaları ilə fərdi və kollektiv metodiki iş aparılır, pedaqoji və texniki minimumlar, digər metodiki tədbirlər keçirilir, onlar elmi-praktik konfranslarda, seminar-praktikumlarda, nəzəri seminarlarda, metodiki bölmələrin işində, pedaqoji qiraətlərdə iştirak edirlər.

## III. Pedaqoji və texniki minimumların təşkili qaydaları.

18. Peşə məktəblərində və peşə litseyində pedaqoji təhsil almadan işləyən mühəndis-pedaqoji işçilərin pedaqogika və psixologiya elmlərinin əsaslarına, tədrisin metodikasına yiyələnmələri üçün pedaqoji minimum təşkil edilir.

19. Şagirdlərin peşə və ümumtəhsil hazırlığının vəhdətini, ümumtəhsil fənlərinin peşə istiqamətini, fənlərarası, istehsalat təlimi ilə əlaqənin səmərəliliyini təmin etmək məqsədi ilə ümumtəhsil fənn müəllimləri üçün texniki minimum təşkil olunur.

20. Pedaqoji və texniki minimumlar xüsusi tədris plan və proqramlarına əsasən aparılır.

21. Pedaqoji və texniki minimumlar istehsalatdan ayrılmamaqla bir dərs ili müddətində aparılır və başa çatdırılır.

22. Pedaqoji və texniki minimumların aparılmasına təhsil müəssisəsinin qabaqcıl və təcrübəli müəllimləri, habelə kənar müəssisə və təşkilatların mütəxəssisləri, alimlər cəlb edilə bilər.

23. Pedaqoji və texniki minimumların pedaqoji şuralarda və metodiki komissiyaların iclaslarında müzakirə olunur və müvafiq qərarlar qəbul edilir.



# PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİNDƏ İMTAHANLARIN APARILMASI VƏ ŞAGİRDLƏRİN KURSDAN-KURSA KEÇİRİLMƏSİ HAQQINDA
# TƏLİMAT

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.03.2000-ci il marixli 250 №-li əmri ilə məsdiq edilmişdir.*

İmtahanlar tədris prosesinin son mərhələsi olub, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş tədris planlarında nəzərdə tutulmuş fənlər və müddətlər üzrə keçirilir.

**I. Şagirdlərin imtahanlara buraxılması.**

1. İmtahanların başlanmasına ən azı 5 gün qalmış müəllim və istehsalat təlimi ustaları tərəfindən çıxarılan illik qiymətlər əsasında pedaqoji şura fərdi qaydada şagirdlərin imtahanlara buraxılması barədə qərar qəbul edir. Nəzəri təlim fənlərində imtahanlara bütün fənlərdən müsbət, həmçinin bir-iki fəndən "qeyri-kafi" qiymətləri olan şagirdlər buraxılırlar.

2. İmtahan keçirilən bir-iki fəndən illik qiyməti "qeyri-kafi" olan şagirdlər həmin fənn üzrə imtahana, yalnız illik "qeyri-kafi" qiymətini düzəltikdən sonra imtahanlar üçün müəyyən edilmiş əlavə müddətdə verirlər.

**II. Şagirdlərin imtahanlardan azad edilməsi.**

3. Bütün fənlərdən illik müvəffəq qiymətləri olan şagirdlər səhhətinə görə müstəsna hallarda nəzəri təlim fənləri üzrə imtahanlardan azad edilə bilərlər. Bu halda yekun qiymətləri şagirdlərin faktiki hazırlığı nəzərə alınmaqla illik qiymətlərə əsasən çxarılır.

4. Səhhətinə görə şagirdlər imtahanlardan müalicə-profilaktika müəssisəsinin həkim-nəzarət komissiyasının